# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

XXI əsrin ilk günlərindən "Azərbaycan ədəbiyyatı tarixçiliyi ənənəsinin dirçəldilməsi, milli ədəbiyyat tarixinin yenidən dövrləşdirilməsi haqqında təşəbbüslərin səslənməsi müstəqil dövlətçiliyin doğurduğu zəruri milli-mənəvi özünüdərk proseslərinin" real əks-sədası olub, "həm də çoxəsrlik ədəbi təcrübənin, davamlı ədəbiyyat ənənələrinin araşdırılaraq təhlildən keçirilməklə ədəbiyyatda bundan sonrakı prosesləri istiqamətləndirmək üçün də əhəmiyyətli" görür: "Bütün mənalarda Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi-nəzəri təsnifatının müəyyən olunması yeni tarixi zamanın, müstəqillik epoxasının borcu və vəzifəsidir. Azərbaycan ədəbiyyatşünaslıq elmində milli ədəbiyyat tarixçiliyinin dövrləşdirilməsi məsələsinin problem kimi ölkəmizin müstəqillik qazandığı tarixi mərhələdən sonra meydana çıxması və aktuallaşması tamamilə təbiidir".

Müstəqillik əldə etmiş Azərbaycanın mühacirətdə yaranmış ədəbi irsi haqqında materialların əldə edilməsinin "milli ədəbiyyat tarixinin dövrləşdirilməsinə və ayrı-ayrı inkişaf mərhələlərinin obyektiv mənzə-rəsinin canlandırılmasına münasib şərait yaratmış" olduğunu bildirən İsa Həbibbəyli mühacirətdə yaranan Azərbaycan ədəbiyyatı və elmi haqqında" əldə edilən informasiyalarda Abbas Zamanovun, Musa Məcidzadənin, 1987-ci ildə yaradılmış "Vətən" cəmiyyətinin və "Odlar yurdu" qəzetinin, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 1992-ci ildə keçirilmiş I Beynəlxalq mühacirət ədəbiyyatı konfransının, Ədəbiyyat İnstitutunda 2014-cü ildə yaradılmış "Azərbaycan mühacirət ədəbiyyatı" şöbəsinin, bu mövzuda yazılan dissertasiyaların rolunu yüksək qiymətləndirir.

Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Vaqif Sultanlının 1998-ci ildə nəşr edilmiş "Azərbaycan mühacirət ədəbiyyatı" adlı dərs vəsaiti, Professor Həsən Quliyevin Bakıda rus dilində nəşr etdirdiyi "Azərbaycan mühacirət ədəbiyyatı" monoqrafiyasını, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədovun "Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri" adlı monoqrafiyasını, Azərbaycan ədəbiyyatşünaslıq elmində mühacirət ədəbiyyatının ayrı-ayrı görkəmli simalarının həyatı və yaradıcılığına həsr olunmuş monoqrafiyaları, məqalələri, publisist və elmi əsərləri bu istiqamətdə mühüm nailiyyətlər kimi qiymətləndirir.

Azərbaycan ədəbiyyatı tarixçiliyinin dövrləşdirilməsinə sistemli elmi münasibətin XX əsrin doxsanıncı illərindən aktuallaşdığını yazan İsa Həbibbəyli XX əsrin doxsanıncı illərini "Azərbaycan ədəbiyyatı tarixini yenidən formalaşdırmaq üçün konsepsiya axtarışları dövrü" adlandırır. Professor Nazif Qəhrəmanlının (1949-2012) "Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf və dövrləşdirmə problemləri" monoqrafiyasının "Azərbaycan ədəbiyyatşünaslığında milli ədəbiyyat tarixçiliyi ənənələrinə və müstəqillik dövrünün bu istiqamətdəki vəzifələrinə konseptual elmi-nəzəri baxışları əks etdirən ilk ümumiləşmiş tədqiqat əsəri kimi mühüm əhəmiyyət" kəsb etdiyini yazır.

Nazif Qəhrəmanlının "dünya təcrübəsi əsasında və müstəqillik işığında" Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələsinə dair "bir-birinə yaxın olan 7 variantda ayrı-ayrı modellər"ini nümunə gətirir:

I. "Azərbaycan ədəbiyyatı tarixi klassik (XIX əsrədək) və müasir (XIX-XX əsrlər) zaman ölçülərində öyrənilir.

II. Azərbaycan ədəbiyyatı dövlət müstəqilliyinədək və ondan sonra.

III. Azərbaycan ədəbiyyatı tarixi: a) ərəb, fars və digər dillərdə; b) türkdilli Azərbaycan ədəbiyyatı tarixi.

IV. Azərbaycan ədəbiyyatı tarixi şəxsiyyətlər üzrə.

V. Azərbaycan ədəbiyyatı tarixi mərhələlər üzrə.

VI. Azərbaycan ədəbiyyatı tarixi minilliklər üzrə.

VII. Azərbaycan ədəbiyyatı tarixinin nəzəri tarixi". N.Qəhrəmanlı. Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf və dövrləşdirmə problemləri. Bakı, Qartal, 1997, s.108-109)

Nazif Qəhrəmanlının Azərbaycan ədəbiyyatı tarixçiliyi haqqındakı araşdırmalarını "bu problemə dair elmi-nəzəri bünövrə funksiyasını yerinə yetirən" əhəmiyyətli tədqiqat bilir.

Nazif Qəhrəmanlının Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələlərində daha çox ümumi metodoloji prinsiplərə və tarixilik aspektinə istinad etməsi, "bir neçə dəfə şərh etdiyi və nəhayət, modelini verdiyi I variantın açıqlamasında da ədəbiyyat tarixçiliyinin dövrləşdirilməsində həmin prinsiplər"in öz əksini tapdığı açıqlanır:

**"1.Azərbaycan ədəbiyyatı tarixi (klassik dövr)**

a) Dini-fəlsəfi təlimlər tarixi.

b) Şəxsiyyətlər tarixi (xronologiya üzrə).

c) Poetika tarixi.

***2. Müasir dövr (XIX-XX əsrlər)***

a) İdeoloji dönümlər.

b) Ədəbi məktəblər və sosioloji ədəbiyyatşünaslıq.

c) Ədəbi şəxsiyyətlər və üslublar".

İsa Həbibbəyli "göründüyü kimi, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi baxımından birinci variantın açıqlamasında yenidən dövrləşdirilmə üçün faydalı ola biləcək məqamlar vardır. Lakin Nazif Qəhrəmanlının təqdimatında həmin prinsiplər pərakəndə olduğuna görə müasir reallıqları ifadə edə bilmir. Bundan başqa, təəssüf ki, o, təklif etdiyi variantlar əsasında ədəbiyyat tarixçiliyi baxımından özünün yekun qənaəti ola biləcək hər hansı bir modelin konkret şəkildə üzərində dayanmamışdır" -,deyir.

Bununla belə, ümumi götürdükdə Nazif Qəhrəmanlının "Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf və dövrləşdirmə problemləri" monoqrafiyasını "ədəbiyyat tarixi anlayışının nəzəriyyəsinə, bu sahədə Azərbaycan təcrübəsinin şərhinə və perspektivlərinə, dövrləşdirmə konsepsiyasının zəruriliyinə həsr olunmuş qiymətli elmi mənbə kimi" qiymətləndirir.

Müstəqillik illərində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi istiqamətində akademik Nizami Cəfərovun irəli sürdüyü elmi konsepsiyanı da "bu mühüm işin nəzəri əsaslarını müəyyənləşdirmək baxımından" əhəmiyyətli bilir: "Əvvəla, Nizami Cəfərov Azərbaycan ədəbiyyatı tarixini dövrləşdirmək üçün nəzərə alınması zəruri olan meyarları müəyyənləşdirmişdir: ədəbi-estetik, etnik-kulturoloji və ictimai-siyasi proseslərə əsaslanmaq. İkincisi, Nizami Cəfərov konkret olaraq Azərbaycan ədəbiyyatı tarixinə dair özünün dövrləşdirmə modelini də təqdim etmişdir:

1. V-XII əsrlər Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının qədim dövrü.

2. XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının orta dövrü.

3. XVII əsrdən XX əsrin əvvəllərinə qədərki Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının yeni dövrü.



4. XX əsrin əvvəllərindən sonrakı Azərbaycan ədəbiyyatı tarixinin müasir dövrü.

Qənaət budur ki, müstəqillik illərində Nazif Qəhrəmanlı ilk dəfə Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi zərurətini ideya kimi irəli sürdüyünü, elmi-nəzəri cəhətdən əsaslandırdığını, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələsinə "geniş masştabda baxmaq, daha əsaslı şəkildə yanaşmaq haqqında düşünmək üçün" zəmin yaratdığını, Nizami Cəfərovun isə "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin özünəməxsus konkret versiyasını" formalaşdırdığını, bunun "Azərbaycan ədəbiyyatı tarixinin çoxəsrlik inkişaf yolunun maksimum dərəcədə geniş ümumiləşdirilməsinə əsaslanan bir dövrləşdirmə təsnifatı" olduğunu, Nizami Cəfərovun təsnifat modeli geniş ümumiləşdirmələr əsasında formalaşdırılmış dövrlərin tərkibindəki aralıq mərhələlərini tapıb elmi cəhətdən dəyərləndirmək üçün fərqli yanaşmaya şərait hazırlanmışdır.

İsa Həbibbəyli bütün bu araşdırmalarına, təhlil və tədqiqatlarına əsaslanaraq bildirir ki, XX əsrin doxsanıncı illərində və XXI əsrin əvvəllərində meydana çıxan təşəbbüslər Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi sahəsində konsepsiya axtarışlarınıninkişaf etməkdə olduğunu nümayiş etdirir. Bu isə öz növbəsində milli ədəbiyyat tarixinin nəzəri-konseptual şəkildə dövrləşdirilməsi üçün yeni mərhələni hazırlamışdır.

* * *

İsa Həbibbəylinin "Ədəbiyyatda azərbaycançılıq konsepsiyası və dövrləşmə təsnifatı" əsəri elmi-nəzəri tutumu etibarı ilə diqqəti çəkir.

Azərbaycan ədəbiyyatşünaslığında, siyasi publisistikasında azərbaycançılıq ideologiyasıyla bağlı xeyli tədqiqat əsərləri vardır. Akademik Ramiz Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "XXI əsrdə milli dövlətçilik", "Azərbaycanda siyasət: dünən, bu gün, sabah", Yaşar Qarayevin "Milli "mən" şüuru və etnik yaddaş-azərbaycançılıq", Azad Nəbiyevin "Azərbaycançılıq-estetik dəyərdən milli ideologiyaya", Anarın "Azərbaycançılıq haqqında düşüncələr", Nizaməddin Şəmsizadənin "Azərbaycançılıq ideologiyası", "Azərbaycançılıq", İsa Həbibbəylinin "Azərbaycançılıq məfkurəsi yollarında", "Möhtəşəm azərbaycançılıq dərsliyi", Nizami Cəfərovun "Azərbaycanşünaslığa giriş", Əlikram Tağıyevin "Milli ideya və milli ideologiya", Asif Əfəndiyevin "Azərbaycançılıq-türkçülük birliyi", Akif Hüseynovun "Ədəbiyyat və ideologiya", Rəhim Əliyevin "Azərbaycançılıq: dünən, bu gün, sabah", Hacı Xanəli Babayevin "Azərbaycançılıq elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi", Nazif Ələkbərlinin "Türkçülük, yoxsa azərbaycançılıq?!", Səlahəddin Xəlilovun "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", "Lider. Dövlət. Cəmiyyət", Sona Vəliyevanın "Azərbaycançılıq: milli ideologiya və ədəbi-estetik təlim kimi" və "Milli dövlətçilik hərəkatının yüksəlişi və xalq cümhuriyyəti dövründə azərbaycançılıq ideyası", C.Musayevin "Azərbaycan dövlətçiliyi ideologiyası", Mübariz Yusifovun "Heydər Əliyev və Azərbaycançılıq ideologiyası", "Azərbaycançılıq" və s. kimi dəyərli tədqiqat əsərlərində azərbaycançılıq məsələləri əhatəli şəkildə tədqiq edilmişdir.

Alim çox qədim tarixə malik Azərbaycan ədəbiyyatının inkişaf yolunu tədqiq edir və həmişə bu tədqiq prosesində Zaman və ədəbiyyat məsələsinin "əsas faktorlardan biri" olduğunu söyləyir.

Zaman faktoruna bu və ya digər rakursdan baxan alim Zaman faktorunun "yazıçı və şairlərin dünyabaxışında, ədəbi prosesin inkişaf etməsində" mühüm rol oynadığını görür. Hər bir dövrün ictimai-siyasi hadisələrinin, Zamanın meydana çıxardığı idealların "böyük ədəbiyyatın inkişaf istiqamətini və əsas hədəflərini" müəyyən etdiyini, zamanın arxasınca gedərək onu təsvir və ya tərənnüm etməklə kifayətlənmədiyini, Azərbaycan ədəbiyyatının "bütün inkişaf mərhələlərində, həm də Zamanın ən aparıcı ideyalarını" formalaşdırdığını, proseslərin inkişafında əsas hərəkətverici qüvvə funksiyasını yerinə yetirdiyini, xalqı və ictimai fikri ümummilli ideallar uğrunda mübarizəyə doğru apardığını söyləyir. "Zamanın ictimai-siyasi xarakteri və ayrı-ayrı epoxalarda baş vermiş böyük tarixi-mədəni hadisələrin" ədəbi cərəyanları, mövzuları, janrları, üslubları, hətta qəhrəmanları meydana çıxardığı, böyük ədəbiyyatın da öz növbəsində Zamanın yeniləşməsinə, inkişafına və dəyişməsinə təkan verdiyi açıqlanır.

*(Davamı var)*

***Gülxani PƏNAH***